# ÇALDIRANA GEDƏN YOL

## romandan səhifələr



*Hüseynbala MİRƏLƏMOV*

***Aləmşah bəyimin həyəcanqarışıq sevincləri köksünə sığmırdı. İndi o, daha çox yaddaşından boy göstərən keçmişin olaylarını kədərqarışıq bir duyğu ilə xatırlasa da son nəticədə indiki zamana qayıdır. Taleyin acı gərdişlərindən əri Şeyx Heydərin müridləri sayəsində xilas etdiyi övladlarının gələcəyi haqqında düşünürdü. Şübhəsiz, istəməzdi ki, övladlarının həyatı bundan belə də qanlı-qadalı münaqişələrdə, ölümlü-döyüşlərdə keçsin. Amma onu da bilirdi ki, Şeyx Heydər babasından atasına keçmiş, yəni Şeyx Cüneydlə başlanmış savaş yolunun qurbanı olmaqdan çəkinməyərək müharibəni haqq savaşının əlacı bildiyi kimi, hələ gəncikən həlak olsun Sultan Əlidən sonra həyatlarının çiçəklənmiş bir vaxtına çatmış oğlanları - Şah İsmayıl və Sultan İbrahim də bu yoldan çəkinəsi deyillər. Ona görə də Aləmşah bəyim çox gəncikən parlamış, artıq igid bir sərkərdə kimi parlayan oğlu İsmayıla müharibədən çəkinməyi heç məsləhət bilmirdi də. Çünki Səfəvi ocağını qorumağın bircə yolu vardı, o da döyüşlərdən çəkinməmək, labüd müharibələrdə qalib gəlmək.***

***Anaya bircə o qalırdı ki, oğlanlarının salamatlığını istəsin. Bu salamatlığın nəticəsi o olacaqdı ki, oğlanları evlənəcək, ailə quracaq, Şeyx Səfi ocağının davamçıları dünyaya gələcək. Şeyx Heydərin yolunda vuruşduğu əqidə, inam zaman-zaman təzə övladların qəlbində kök salacaq, boy göstərəcək.***

***Oğlu Sultan İbrahimi yanına çağırdı. İbrahim içəri girib əvvəlcə anasına təzim elədi, sonra irəli yeriyib uzun boyunu qucaqlamaq, başını sinəsinə sıxmaq istədi, amma anasına çatanda özünü uşaq kimi hiss elədi. Demək olar ki, qolları boşaldı və o, özü anasının qucağına sığındı.***

***Ana İbrahimin isti nəfəsini köksündə duydu. Ona elə gəldi ki, çox uzaq zamana qayıtdı. Az qala iyirmi il əvvələ. Bu, o zaman idi ki, hər an hardan gəldiyi bilinməyən qəddar atlılar dəstəsi peyda olacaq. Başqa ad altında gizlənmiş ananı və iki oğlu çalıb aparacaq. Eşitmişdi ki, daha doğrusu, müdriklər ona xəbər eləmişdi ki, Sultan Yaqubun adamları onları hər yerdə axtarırlar. Oğlarlarına qurama adlar vermişdi. Və tez-tez onlardan soruşardı: - Sənin adın nədir? O da cavab verərdi: - Xəlil. İsmayıldan soruşardı: - Bəs sənin adın nədir? - Qurban. Artıq uşaqlar bir-birini də bu adla çağırardılar.***

*(Əvvəli ötən saylarımızda)*

Ana öz adını Həcər deyə tanıtmışdı. Uşaqlar analarını bu adla çağırardılar.

Bütün bunlar ananın gözləri önündən keçirdi.

- Sənin adın nədir? - Aləmşah bəyim oğlu İbrahimdən soruşdu.

- Adım Xəlildir, ana. İbrahim həmin uzaq keçmişdə qalmış adını dedi. Ancaq sonra güldü. Anası da güldü.

İbrahim başını qaldırıb anasının gözlərinə baxanda gördü ki, vaxtından əvvəl qocalmaqda olan gözəllər gözəli Aləmşah bəyimin gözləri dolub. İbrahim əvvəlcə sağ əlini uzadıb anasının sağ gözünü sildi. Sonra da sol əlini qaldırıb sol gözünü sildi.

- Hə, mənim əziz balam, doğru deyirsən, sənin adın Xəlil idi. Axı Xəlil elə həm də İbrahim deməkdir.

- Tanrının böyüklüyünə şükür, ana, indi o günlər keçmişdə qaldı.

- Doğrudur, indi o günlər keçmişdə qalıb. Ancaq... - Mənim ürəyim hələ də sakitlik tapmır. Bu qanlı müharibələr nə qədər var, yəqin ki, mən də arın-arxayın ola bilmərəm.

- Yox, ana indi gərək bir o qədər də nigaran qalmayasan.

- Necə nigaran qalmayım? Müharibə müharibə arxasınca bitib-tükənmir.

- Özün yaxşı bilirsən ki, düşmənlərimiz çox və güclüdür. Ancaq daha əvvəlki zaman deyil. İnsanlar bizə inanırlar. Azərbaycanın hər yerindən əli qılınc tutan, ata süvar olan hər kəs sel kimi axıb yanımıza gəlir.

- Ay oğul, deyirəm ki, siz hələ cavansınız. Bu dünya işlərindən baş çıxardan hiyləgərlərdən ehtiyatlı olun.

İbrahim anasının ağıllı sözlərini məmnunluqla dinləyirdi. Sanki ananın hər sözü onun ruhuna yayılır, qanını təzələyirdi. Elə bil ki, ananın hər sözündən sonra o, neçə il böyüyürdü. Hər halda anasının nigaranlığını və narahatlığını da anlayırdı. Buna görə də anasını bir az sakitləşdirmək, onu həyəcandan çıxarmaq niyyətilə dedi:

- Əzizim ana, sənə yaxşı məlumdur ki, qardaşım İsmayılın qılıncı dağlar yarmaq gücündədir. Düşmənlərimiz ondan zağ-zağ əsirlər.

- Bilirəm, oğlum, Allah qılıncınızı daha iti eləsin, qolunuz gücdən düşməsin, ağlınız ziyadan əskik olmasın.

- Mən düşünürəm ki, əziz anamın məsləhətləri, duaları döyüş vaxtı bir qoşun qədər köməyimiz olar. Çünki ana səsini Tanrı eşidir.

- Elədir, oğlum, onu da bil ki, Uca Yaradan həmişə haqqın tərəfindədir. Siz də çalışın ki, haqsız əməl sahibi olmayasınız.

- Baş üstə, anam, dediklərini eləcə İsmayıla da çatdıraram. Amma indi izin versən, getmək istərdim. Səfərim var.

- Səfərinə uğur.

- Bəs demədin, məni nə üçün çağırmısan...

- Deməli o qədər sözüm var ki, hansını deyəcəyimi də bilmirəm.

Aləmşah bəyim oğlunun əlindən tutub yaxındakı kürsüyə gətirdi. Onlar yan-yana əyləşdilər.

İbrahim tələssə də anasının sözlü olduğunu duyduğundan bunu büruzə verməki istəmirdi.

- Mən səni ona görə çağırmışam ki, gərək İsmayılı bu tezlikdə evləndirək. Dünyanın işləri elə qarışıqdır ki...

İbrahim başı ilə anasının dediklərini təsdiqlədi. Özü dinmədi, istədi ki, anası sözünə davam eləsin.

Aləmşah bəyim oğlunun sağ əlindən tutub ürəyinin üstünə qoydu.

İbrahim hiss etdi ki, anasının qəlbi həyəcanla döyünür. Onun üzünə baxdı. Nə demək istədiyini soruşmağa cəsarət etmədi. Anası da bildi ki, artıq sözünü deməyin zamanıdır.

- Mənim nə dediyimi ürəyim deyir, bunu gərək sən biləsən. İsmayıla da anlat və onu tezliklə toy tədarükünə hazırla.

- Anam kimi gəlin görmək istəyir? - İbrahim sevincindən tez-tələsik dilləndi.

- Bilirsən ki, atan Şeyx Heydərin müridləri sayəsində siz gəlib bu ərsəyə çatmısınız. Böyük qardaşın Sultan Əli son döyüş qabağı özü mənə tapşırmışdı ki, qardaşlarımı tez evləndirərsən. Qoy nəslimiz kəsilməsin. Düşünürəm ki, artıq varxdır. Əbdi bəyin özü atanın ən yaxın dostu idi. Elə bilirəm ki, onun qızı İsmayıl üçün ən üstün həmdəm olar.

İbrahim anasının sərraf nəzərlərindən xoşhal oldu. Onun özü də Əbdi bəyin yolunu həmişə saxlayır, hörmət və ehtiram göstərirdi. Əslən təkə-türkmanlı olsa da, qoşun əhli Əbdi bəyi «Şamlı» deyə çağırırdı. Çünki Şeyx Heydərin yanına gələndə Şamdan gəlmişdi və elə bu adla da tanınmışdı.

İbrahim fikrə getdi. Ona görə yox ki, anasının dedikləri ilə razı deyildi. Əslində, Əbdi bəyin qızı ilə izdivacı İsmayıl üçün çox münasib bilirdi. Onu da bilirdi ki, qarşıda Sultan Muradla ağır bir savaş var. Və bu savaşqabağı İsmayıl çətin ki, toy tədarükündə olmaq istəsin. İbrahim üçün çətin orası idi ki, məsələnin bir qədər ləngiyəcəyini, ləngiməli olacağını anasına necə çatdırsın.

- Anam Aləmşah bəyim nənəmiz Sara xatundan az öyrənməyib. Onun ağlının ziyası Sara xatunun ruhundan güc alır və dedikləri də çox doğrudur.

- Bəs onda nə deyirsən?

- Onu deyirəm ki, əziz anam gərək bir qədər səbirli olsun. Sultan Muradla savaşı Ulu Yaradının köməyilə qurtaraq. Özü də bilirəm ki, Tanrının yardımı ilə Şeyx Səfi ocağına düşmən olanların məğlubiyyətini tezliklə görərik.

Aləmşah bəyim başa düşdü ki, daha İbrahimə nə isə təhdid etməyin yeri yoxdur. Ayağa qalxdı. İbrahim də qalxdı.

- Get oğlum, Tanrı üstünüzdə yar olsun. Amma unutma ki, bu savaşdan sonra gərək İsmayılın toy məclisi Təbrizdə, həm də bütün Təbriz əhlinin iştirakı ilə başlansın.

- Yaxşı, ana, inanıram ki, hər şey sənin istəyinlə olacaq.

İbrahim çıxdı.

Aləmşah bəyim hər gün bu vaxt Səkkiz cənnət sarayının bağına çıxırdı. Artıq ona məlum idi ki, axşam günəş şəfəqlərinin üfüqləri qızartdığı vaxt İsmayıl da Taclı bəyimlə elə bu bağa görüşə çıxır.

Aləmşah bəyim bir neçə gün idi ki, bu görüşü izləyirdi. Gənclərin görüşündən aldığı sevinclərin üstünə bir pay da gəlmişdi. Bu da oğlu İsmayılın Taclı bəyimin şərəfinə oxuduğu qəzəllər idi. Aləmşah bəyim özünü gənclərə göstərmədi. Oğlu İsmayıl da, onun sevgilisi Taclı bəyim də bağın sıx gülüstanlıq bir yerində idi. Aləmşah bəyim elə yer seçdi ki, gənclər onu qətiyyən görə bilməzdilər. Ancaq o, gənclərin danışığını aydın eşidirdi.

İsmayıl bir az yaxına gedib qızın qolundan tutub onun əlini sinəsinin üstünə qoydu.

- Sən ətirli bir qönçəsən, qızılgülsən.

- Bəs sən, - Taclı əlini çəkmədən gülə-gülə soruşdu.

- Mən də qəfəsdə olan bülbül.

- Bəs onda qızılgül öz bülbülünü necə görər?

- Gərək sən o qəfəsi öz əllərinlə açasan. Bülbülü də öz əllərinlə o qönçə gülün üstünə buraxasan.

İsmayıl əlini uzadıb qızın saçlarına çəkdi. Qızılı bulud kimi saçlar İsmayılın barmaqları arasında dalğalandı. Gənclər az qala nəfəs-nəfəsə dayanmışdılar. İsmayıl Taclının başını özünə tərəf çəkmək istədi. Onu təşnə bir istəklə özünə sıxmaq və öpmək könlündən keçdi. Birdən Taclı hürkmüş ahu kimi kənara dartıldı. İsmayılın əlindən çıxdı:

- Axı mən sənə demişdim ki, xəta etməyəsən.

İsmayıl qızın qətiyyətini görüb dayandı. Sanki bu vaxt bülbüllər daha şövqlə oxudu. İsmayıl əlini Taclıya sarı uzadıb hezin-hezin öz qəzəlini dilə gətirdi:

İşim eşqində fəryad eyləməkdir,
Vüsalın vədəsin yad eyləməkdir.

Xərab etdi demən eşqin könülün,
Bəs ol viranı abad eyləməkdir.

Bu könlüm adəti hər şəb ğəmində
Fəğanü ab bünyad eyləməkdir.

Verürmən ğəm dilə ümmidi-vəslin,
Bu rəsm ilən anı şad eyləməkdir.

Xətayi qulluğun məqbul qılsan,
Bu gün yüz bəndə azad eyləməkdir.

Aləmşah bəyim göy üzünə baxdı. Sanki nəzərlərilə Allahı axtarıb ona yalvarmaq istəyirdi: «Ey Allahım, sən Səfəvi ocağını qoru» demək üçün. Əslində, Aləmşah bəyim oğlu hansı həzinliklə qəzəlləri oxuyurdusa, misraları dilə gətirirdisə, o da elə həmin avazla ancaq səsi eşidilməyəcək bir tərzdə öz dualarını çağlayırdı.

*(Davamı var)*